## Auditorlar Palatasının üzvləri tərəfindən etik davranış qaydalarına riayət olunması vəziyyəti barədə illik

## HESABAT

### Hesabatın hazırlanmasının hüquqi əsasları

Hesabat Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın 10.2-ci "Etik davranış məsələləri üzrə illik hesabatların hazırlanması (hesabatlarda aparılmış maarifləndirmə işləri, etik davranış qaydalarının pozulması halları və tətbiq edilmiş intizam tənbehi tədbirləri göstərilməklə), Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyaya təqdim edilməsi və ictimaiyyətə açıqlanması" bəndinin və 2013-cü il 5 dekabr tarixində Palata Şurası tərəfindən təsdiq edilmiş "Auditorlar Palatası üzvləri tərəfindən etik davranış qaydalarının pozulması barədə illik hesabatın hazırlanmasına dair TƏLİMAT"ın tələblərinə və Palatanın 2015-2017-ci illər üzrə iş planının 1.5-ci və Palata Şurasının Palatanın 2015-ci il üzrə iş planının 7-ci "Auditorlar Palatasının üzvləri tərəfindən etik davranış qaydalarına riayət olunması vəziyyəti barədə illik hesabatın hazırlanması" bəndlərinə uyğun olaraq hazırlanmışdır.

Azərbaycan Respublikasının Auditorlar Palatasında Palata üzvlərinin etik davranış qaydaları Auditor xidməti haqqında Azərbaycan Respublikası Qanunu, Azərbaycan Respublikası Auditorlar Palatası haqqında Əsasnamə, Palatanın üzv olduğu Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) tanıdığı Peşəkar Mühasiblərin Etika Məcəlləsi, Palata üzvlərinin hüquq və vəzifələri haqqında Əsasnamə, "Palata üzvləri tərəfindən etika məcəlləsinin tələblərinə əməl edilməsini təmin etmək üçün monitorinq aparılması üzrə qayda" ilə tənzimlənir.

"Milli Fəaliyyət Planı"nın 10.4-cü "Dövlət orqanlarının internet saytlarında etik məsələlər üzrə xüsusi bölmənin yaradılması (qeyri-etik davranış barədə elektron şikayət etmə mexanizmi, etik qaydalar, etik hesabatlar və s.)" bəndinə uyğun olaraq Palatanın internet saytında ayrıca yaradılmış "Etika üzrə hesabatlar" bölməsi aktivdir.

Auditor təşkilatlarının və sərbəst auditorların nümayəndələrinin iştirakı ilə keçirilmiş bir sıra beynəlxalq elmi-praktiki konfranslarda, habelə Auditorlar Palatasında keçirilmiş çoxsaylı seminarlarda Palata üzvlərinin etik davranış qaydalarına riayət olunmasının vacibliyi diqqət mərkəzində dayanmışdır.

## Hesabatın məqsədi

Hesabatın məqsədi Auditorlar Palatası üzvləri tərəfindən Etik davranış normalarına riayət edilməsi vəziyyətini müəyyənləşdirməkdən, Auditorlar Palatası tərəfindən Palata üzvləri arasında aparılmış maarifləndirmə işləri, habelə etik davranış qaydalarının pozulması halları və tətbiq edilmiş intizam tənbehi tədbirləri özündə əks etdirməkdən, "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın 10.2-ci Etik davranış məsələləri üzrə illik hesabatların hazırlanması (hesabatlarda aparılmış maarifləndirmə işləri, etik davranış qaydalarının pozulması halları və tətbiq edilmiş intizam tənbehi tədbirləri göstərilməklə), Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyaya təqdim edilməsi və ictimaiyyətə açıqlanması bəndinin tələblərinə uyğun tərtib olunacaq illik hesabata əlavə edilməklə həmin hesabatı daha da dolğunlaşdırmaqdan ibarətdir.

## Giriş

Hesabat ilində "Milli Fəaliyyət Planı"nın 10.3-cü "Etik davranış qaydalarının pozulması ilə bağlı daxil olmuş şikayətlərin effektiv araşdırılması mexanizmlərinin müəyyən edilməsi" bəndi rəhbər tutularaq Auditorlar tərəfindən Etik davranış qaydalarının pozulması ilə bağlı daxil olmuş şikayətlərin araşdırılması mexanizmlərinin təkmilləşdirilməsinə dair Palata sədrinin qüvvədə olan sərəncamına uyğun olaraq bir sıra hallarda ilkin araşdırmalar Palatanın Auditin hüquqi təminatı və standartlaşdırma idarəsində və struktur dəyişikliklərinin aparılması ilə əlaqədar olaraq Auditin hüquqi təminatı və standartlaşdırma idarəsi tərəfindən aparılmış, sonrakı mərhələdə bütün zəruri hallarda Palata rəhbərliyi yanında, sonrakı mərhələdə bütün zəruri hallarda Əsasnamələrinə uyğun olaraq müvafiq Komitələrdə (Auditorlar Palatası Şurasının yanında Auditorların Peşə Etikası Komitəsi və Auditorlar Palatası Şurasının yanında Keyfiyyətə nəzarət Komitəsi), habelə Palata Şurasında müzakirə olunaraq müvafiq qərarlar qəbul olunmuşdur.

2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"ndan irəli gələn vəzifələrin icrası istiqamətində Auditorlar Palatasının 2015-2017-ci illər üzrə iş planının 3.4-cü "Auditorların korrupsiyaya qarşı mübarizəyə aparan orqanlarla əməkdaşlığın gücləndirilməsi" və 3.5-ci "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" bəndlərinə uyğun olaraq Azərbaycan Respublikasının Auditorlar Palatasının, Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya qarşı mübarizə Baş idarəsinin və Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi

Xidmətinin birgə təşkilatçılığı ilə 2015-ci ilin aprel ayının 30-da Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş "Korrupsiyaya və çirkli pulların yuyulmasına qarşı mübarizədə auditin qarşısında duran problemlər və onun həlli yolları" mövzusunda konfrans keçirilmişdir. Bununla əlaqədar olaraq Palatanın saytında yerləşdirilməsi məqsədi ilə elan hazırlanmış, Palatanın saytında yerləşdirilməsi təmin edilmişdir, konfransın plan-proqramı, pressrelizi hazırlanmış, aidiyyatı qurumlara və KİV-ə məktublar göndərilmişdir.

## Hesabatın məzmunu

Hesabat dövründə auditor təşkilatları və sərbəst auditorlar barəsində Auditorlar Palatasının öz təşəbbüsü və digər dövlət orqanlarından, habelə şəxslərdən daxil olmuş müraciətlər üzrə araşdırmalar aparılmışdır.

Bakı şəhəri Suraxanı rayonu Əmircan qəsəbəsi M.Mustafayev küçəsi 7-də yaşayan, Suraxanı Bazar ASC İdarə heyətinin sədri Qafarov Məmmədrza Bağır oğlunun sərbəst auditor Əliyev Aftandil Adıgözəl oğlunun hərəkətlərinə dair Azərbaycan Respublikası Auditorlar Palatasına ünvanladığı 2015-ci il 13 aprel tarixli ərizəsinə baxılmışdır.

Ərizə Azərbaycan Respublikası 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin iddiaçı Məmmədova Səbirə Əsgər qızının cavabdeh "Suraxanı Bazar" ASC-yə "səhmlər üzrə dividendlərin, maddi və mənəvi zərərin ödənilməsi, pozulmuş hüquqların bərpa olunması" tələbinə dair mülki iş üzrə auditor yoxlamasının təyin olunması barədə 03 dekabr 2014-cü il tarixli 2(82)-1712/2014 saylı qərardadının icrası Palata sədrinin 2014-cü il 26 dekabr tarixli 1/29 saylı sərəncamı ilə sərbəst auditor Avtandil Adıgözəl oğlu Əliyevə tapşırılması ilə bağlı olmuşdur.

Daxil olmuş ərizə ilə əlaqədar Aftandil Əliyev Palataya dəvət olunmuş, ərizə ilə tanış edilmiş və izahatı alınmışdır. O, izahatında yoxlamanı birtərəfli qaydada aparması barədə yazılanları təkzib etmiş, Məhkəmə orqanından göndərilmiş və ona təqdim olunmuş 2 (iki) qovluqdan ibarət mülki işlə tanış olduğunu həmin sənədlər əsasında araşdırmanı apararaq nəticəsinə dair tərtib etdiyi yekun sənədlərini Məhkəmə orqanına təqdim etdiyini bildirmişdir. Araşdırma nəticəsində auditorun hərəkətlərində Peşə etikasının tələblərinə zidd hərəkətlər aşkar edilməməsinə baxmayaraq, ərizə ilə əlaqədar olaraq auditorun gəlmiş olduğu nəticənin sübut növü kimi tanınmasının Məhkəmə orqanının müstəsna səlahiyyətinə aid olduğu və ərizəçinin əsaslı hesab etdiyi bütün arqumentləri və dəlilləri barədə Məhkəmə orqanına təqdim etmək hüququna malik olması, eləcə də sərbəst auditor A.Əliyevin aparmış olduğu araşdırmanın nəticələrinə hüquqi qiymət məhkəmə orqanı tərəfindən verildikdən sonra onun hərəkətlərinə

məhkəmə orqanının qərarından asılı olaraq baxılmasının mümkün olması barədə ərizəçiyə cavab verilmişdir.

Azərbaycan Respublikası  Qiymətli Kagızlar üzrə Dövlət Komitəsindən Azərbaycan Respublikası Auditorlar Palatasına daxil olmuş 2015-ci il 16 aprel tarixli 03/07-641 saylı məktubda "Sumqayıt Superfosfat"ASC-nin 2014-cü ilin hesabatının Respublika Maliyyə Nazirliyinin 1995-ci ildə təsdiq etdiyi hesabat formalarında tərtib etdiyi  və buna  "Audit Servis" MMC-nin auditoru Oleq Abdullayev tərəfindən köhnə qaydada auditor rəyinin verilməsi qeyd edilmişdir.

İlkin aparılmış araşdırma nəticəsində müəyyən olunmuşdur ki, həqiqətən auditor təşkilatı tərəfindən aparılmış auditin nəticələri 700 saylı "Ümumi təyinatlı maliyyə hesabatlarının tam dəsti üzrə müstəqil auditorun hesabatı"  Beynəlxalq Audit Standartına uyğun tərtib edilməmiş və keyfiyyətsiz audit aparılmışdır. Bununla bağlı Arayış tərtib olunaraq rəhbərliyə təqdim olunmuşdur.

Həmin məsələ Auditorlar Palatası sədrinin yanında 2015-ci il 21 may tarixində keçirilən iclasda baxılmış və qərara alınmışdır ki, Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən göndərilmiş məktub və M.Abbasov tərəfindən ilkin araşdırmanın nəticəsinə dair təqdim olunmuş xidməti məktub Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə Nəzarət Komitəsinə göndərilmişdir. Həmin məsələyə Komitədə baxıldıqdan sonra Palata Şurasında müzakirəyə çıxarılmışdır. Auditorlar Palatası Şurasının qərara  ilə:

Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının "Beynəlxalq Audit Standartarının tədbiqinin həyata keçrilməsi haqqında" 2009-cu il 30 dekabr tarixli 206/7 saylı qərarının tələblərinə, habelə Peşəkar mühasiblərin Etika Məcəlləsinin "Peşə sərtiştəliliyi və lazımi dəqiqlik" prinsipinə əməl etmədiyinə görə "Audit Servis" MMC tərəfindən "Sumqayıt Superfosfat" ASC-də aparılmış audit keyfiyyətsiz hesab edilmiş və "Audit Servis" MMC-nin direktoru-auditoru Oleq Abdullayevə ciddi xəbərdarlıq edilmiş, gələcəkdə belə hallara yol veriləcəyi təqdirdə barəsində daha təsirli tədbirlərin görüləcəyi onun nəzərinə çatdırılmışdır.

Fizuli rayon Böyük Bəhmənli Bələdiyyəsinin sədri Elşən Mətləb oğlu Məmmədov tərəfindən sərbəst auditor Yasin Rza oğlu Şirinovun Bələdiyyədə auditor xidməti göstərərkən hərəkətləri barədə Azərbaycan Respublikası Auditorlar Palatasına müraciət daxil olmuşdur. Həmin müraciətdə 01.01.2012-ci il tarixdən 01.12.2014-cü il tarixədək olan dövrün Bələdiyyənin təqdim etdiyi maliyyə hesabatlarının auditində müqavilə bağlanması və auditor rəyi barədə narazılıqlar ifadə edilmişdir.

Qeyd edilən məsələ ilkin olaraq Keyfiyyətə nəzarət və hüquqi təminat İdarəsində, Palata rəhbərliyinin göstərişinə əsasən sonrakı mərhələdə isə Keyfiyyətə nəzarət Komitəsi tərəfindən apaşdırılmışdır.

Araşdırma nəticəsində müəyyən olunmuşdur ki:

Bələdiyyələrin gəlir və xərclərini əks etdirən mühasibat sənədlərinin auditi xüsusi təyinatlı audit tapşırığı olduğu üçün, audit 800 saylı "Xüsusi təyinatlı audit tapşırıqları üzrə müstəqil auditorun hesabatı" Beynəlxalq Audit Standartı ilə rəsmiləşdirilməlidir.

Eyni zamanda 2004-cü il 29 iyun tarixli "Mühasibat Uçotu haqqında" Azərbaycan Respublikası Qanunun 13.1-ci və 17.0.3-cü maddələrinə əsasən Bələdiyyələr 01.01.2009-cu il tarixdən maliyyə hesabatlarını Büdcə Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq tərtib edilməsi şərti pozulmuşdur. Belə ki, maliyyə hesabatları, uçot siyasəti və izahlı qeydlər tərtib edilməmişdir. Bu vacib sənədlərin olmadığı halda sərbəst auditor Yasin Şirinov auditdən imtina etməmiş, əksinə beynəlxalq audit standartlarına tam uyğun gəlməyən auditorun hesabatını təqdim etmişdir.

Bununla da Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının "Beynəlxalq Audit Standartarının tədbiqinin həyata keçrilməsi haqqında" 2009-cu il 30 dekabr tarixli 206/7 saylı qərarının tələblərini pozmuşdur. Bundan başqa müəyyən edilmişdir ki, sərbəst auditor sifarişçiyə boş müqavilə formalarına imza etdirmiş, sonradan müqavilə qiymətini sifarişçi ilə razılaşmadan fərqli məbləğlər əks etdirmiş, heç bir maliyyə hesabatları olmadan iki fərqli məzmunda auditor rəyi təqdim etmişdir.

Rəyin birində hesabatların Milli Mühasibat Uçotu Standartlarına, digərində isə Büdcə Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına müvafiq tərtib edildiyi bildirilmiş və Rəydə auditin Beynəlxalq Audit Standartlarına uyğun aparılması göstərilmişdir.

Faktiki olaraq təqdim edilmiş materiallarda auditorun heç bir iş sənədlərinin tərtib etmədiyi (tapşırığın qəbul edilməsi, planlaşdırma, analitik prosedurlar, auditor sübutları, yekun nəticələr və digər iş sənədləri), faktiki olaraq təftiş apardığı və tərtib etdiyi hesabatda Bələdiyyənin fəaliyyətində nöqsan və çatışmazlıqlar barədə məlumatları qeyd etmişdir.

Auditorlar Palatası Şurasının qərarı ilə Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının "Beynəlxalq Audit Standartlarının tədbiqinin həyata keçrilməsi haqqında" 2009-cu il 30 dekabr tarixli 206/7 saylı qərarının tələblərinə əməl etmədiyinə, Peşəkar Mühasiblərin Etika Məcəlləsinin Düzgünlük, Obyektivlik, Peşə səriştəliliyi və lazımi dəqiqlik prinsiplərini pozduğuna, bələdiyyədə aparılan auditin nəticələrini 800 saylı

“Xüsusi təyinatlı audit tapşırıqları üzrə müstəqil auditorun hesabatı” Beynəlxalq Audit Standartı ilə rəsmiləşdirmədiyinə görə aparılmış audit keyfiyyətsiz hesab olunmuş və sərbəst auditor Yasin Rza oğlu Şirinova ciddi xəbərdarlıq edilmişdir.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin yoxlamanın qeydiyyata alınmasına dair sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrindən 2015-ci il 05 iyun tarixli KY150824641 saylı Çıxarışa və Azərbaycan Respublikası Auditorlar Palatası sədrinin 2015-ci il 11iyun tarixli 21 saylı əmrinə əsasən sərbəst auditor Şirxan Yadigar oğlu Gülməmmədovun 01 iyun 2013-cü il tarixdən 01 iyun 2015-ci il tarixədək olan dövr üzrə maliyyə-təsərrüfat fəaliyyətini yoxlanılmış və 19 iyun 2015-ci il tarixli akt tərtib edilmişdir.

Aparılan yoxlamanın nəticəsi üzrə sərbəst auditor Şirxan Gülməmmədovun fəaliyyətində aşağıdakı nöqsanlar aşkar edilmişdir:

Sərbəst auditor Azərbaycan Respublikası Prezidentinin imzaladığı 2007-ci il 22 may tarixli 333-IIIQ nömrəli “Auditorun mülki məsuliyyətinin icbari sığortası haqqında” Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq öz fəaliyyətini sığortalamamışdır;

Auditorlar Palatası Şurasının 2009-cu il 26 yanvar tarixli 197/6 saylı “Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin tövsiyə olunan minimum hədləri barədə” Auditorlar Palatası Şurasının 2005-ci il 23 dekabr tarixli 159/5 saylı qərarına əlavə və dəyişikliklər edilməsi haqqında” qərarına tam riayət edilməmiş;

"Açıq Hökümətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın və "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın həyata kecirilməsi ilə bağlı Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2012-ci il 5 oktyabr tarixli 234/4 saylı qərarı ilə təsdiq edilmiş İş Planının 9.3-cü bəndinə riayət edilməyərək yoxlamanın əhatə etdiyi dövr ərzində daxil olmuş 78652,00 manat vəsaitin hamısı və yaxud 100% nağd qaydada sərbəst auditorun kassasına daxil olmuşdur;

Sərbəst auditor tərəfindən xəzinə kitabı aparılmamış, bir çox hallarda xərclərin istifadəsinə dair təsdiqedici sənədlər olmamışdır.

Auditorlar Palatasına 2015-ci il üçün nəzərdə tutulan üzvlük haqqı ödənilməmişdir;

Bununla da, auditor tərəfindən Peşəkar Mühasiblərin Etika Məcəlləsinin Peşə davranışı prinsipinin “...müvafiq qanunvericiliyə və ya qaydalara riayət etməli, habelə peşəsini gözdən salan hər hansı hərəkətlərdən çəkinməlidir” müddəası pozulmuşdur.

Yoxlamanın nəticələri 2015-ci il 13 iyun tarixində Auditorlar Palatası sədrinin yanında keçirilən iclasda baxılmış və qərara alınmışdır ki:

Sərbəst auditor Şirxan Yadigar oğlu Gülməmmədovun fəaliyyətində ciddi qanun pozuntusu, nöqsan və çatışmazlıqların aşkar olunduğunu və onların aradan qaldırılmadığını, fəaliyyətində əvvəllər də belə hallara yol verildiyini nəzərə alaraq ona son xəbərdarlıq edilməklə töhmət elan edilmiş və gələcək fəaliyyətində belə kobud nöqsanlara yol verdiyi təqdirdə ona verilmiş lisenziyanın ləğvi məsələsinə baxılacağı nəzərinə çatdırılmışdır.

Bank VTB (Azərbaycan) ASC-nin sabiq əməkdaşları Bakı şəhəri, Xətai rayonu, R.Məmmədov küçəsi, ev 10, mənzil 71-nin  sakini Səbinə Əsgərovanın və Nəsimi rayonu Bakıxanov küçəsi ev 42, mənzil 120-də yaşayan Samir Həsənovun Azərbaycan Respublikası Auditorlar Palatasına 2015-ci il 31 avqust tarixli müraciətləri Palata rəhbərliyinin göstərişinə uyğun olaraq Auditin hüquqitəminatıvə standartlaşdırma idarəsi tərəfindən araşdırılmışdır. Bununla əlaqədar olaraq “Baker Tilly Audit Azərbaycan” MMC-nin rəhbərliyi Palataya dəvət olunmuş və məktubla tanış edilmişdir. MMC-nin rəhbərliyindən müraciətin məzmununda göstərilənlərlə əlaqədar izahat istənilmiş, müzakirələr aparılmışdır. MMC-nin rəhbərliyindən bu mərhələdə izahat təqdim edilmədiyindən xidməti məktubla rəhbərliyə müraciət edilmiş, həmin xidməti məktub Palata Şurası yanında fəaliyyət göstərən üç Komitəyə **- Qanunvericilik və hüquqi məsələlər üzrə Komitəyə (sədr Elnur İbrahimov),  Milli Auditə dəstək üzrə Komitəyə (Zamin Hüseynov) və Mübahisə və Apellyasiyalar üzrə Komitəyə (sədr Adıgözəl Musayev) rəyə** göndərilmiş onların rəyi alınmışdır. Komitələrin rəyinə əsasən Baker Tilly Audit Azərbaycan” MMC-nin rəhbərliyinin araşdırma ilə bağlı izahat verməməsinin əsassız olduğu əks edilmiş, bununla bağlı Palata rəhbərliyi yanında müzakirələr aparıldıqdan sonra cəmiyyətin rəhbərliyi tərəfindən şikayət ərizəsi ilə əlaqədar izahat xarakterli cavab alınmışdır. Həmin cavabdan məlum olur ki, “Bank VTB”ASC və “Baker Tilly Audit Azərbaycan” MMC arasında 30 mart 2015-ci il tarixli FAS_002/15 saylı  müqavilə bağlanmışdır. Müqavilənin şərtlərinə və müqavilədə qeyd edilmiş texniki tapşırığa uyğun olaraq , “Sifarişçi” nin  Bakı şəhərində yerləşən Elmlər və Neftçilər filialları, eləcə də Gəncə şəhərində yerləşən Gəncə filialında aparılmış təmir işlərinin həcmi və dəyərinin təhlilləri aparılmışdır. Təhlilin nəticələri 21 aprel 2015-ci il tarixli hesabatla rəsmiləşdirilərək “Sifarişçi”yə təqdim edilmişdir. Hesabatın hazırlanmasında smeta sənədlərinin, texniki tapşırıqların istifadəsi ilə bərabər, müstəqil ekspertin cəlb edilməsindən, sifarişçinin nümayəndələri ilə görüşlərdən, filiallara edilmiş

səfərlər zamanı toplanmış məlumatlardan, eləcə də təmirlə məşğul olan şirkətlərdən toplanan materiallardan istifadə edilmişdir.

Həmçinin daxil olmuş məktubdan bəlli olmuşdur ki, aparılmış işlərin əhatə dairəsi hər hansı bir fiziki və ya hüquqi şəxslərə deyil, “Sifarişçi” tərəfindən seçilmiş və təmir işlərini həyata keçirən hüquqi şəxs tərəfindən görülmüş işlərinin smetasının təhlilinə aid olmuşdur.

“Baker Tilly Audit Azərbaycan” MMC-nin “Bank VTB”ASC-yə təqdim etdiyi hesabatında “Biz başa düşürük ki, planlaşdırılmış və faktiki olaraq aparılmış təmir işləri ilə bağlı qərarların qəbulunda yalnız bizim hesabata əsaslanmayacaqlar, daha doğrusu Hesabatı ümumi təhlilin bir hissəsi kimi nəzərdən keçirəcəklər. Bu səbəbdən bizim hesabat planlaşdırılmış və faktiki olaraq aparılmış təmir işləri ilə bağlı biznes həllərin qəbulunda nəzərə alınması zəruri olan digər sorğular, təhlillər və rəylərin əvəzi olaraq “istifadəsi məqsədəuyğun deyildir” kimi fikirlər əks olunmuşdur ki, bu dolayısı ilə şikayətçinin auditor təşkilatı ilə bağlı sualına cavab ola biləcəyi məzmunlu məktub göndərilmişdir. Eyni zamanda ərizəçiyə bildirilmişdir ki, Bank rəhbərliyi tərəfindən auditor təşkilatının seçilməsi ilə bağlı prosedurlar Bankın struktur daxili səlahiyyətlərinə aiddir və həmin bankın aidiyyatı qurumunun qərarına əsasən müəyyən olunur. Tenderin keçirilməsi, nəticələri üzrə qərar qəbul edilməsinə auditor təşkilatının müdaxilə etməsinin heç bir hüquqi əsası yoxdur.

Biləsuvar rayon İsmətli bələdiyəsinin mühasibi Dövlətov Tehran Şabı oğlunun sərbəst auditor Şərif Bəşirovun qeyd olunan bələdiyyədə audit apararkən pozuntulara yol verməsi barədə Auditorlar Palatasına ünvanlandığı ərizələr araşdırılmış və məlum olmuşdur ki, Tehran Dövlətovun ərizəsində yanlışlığa yol verilmişdir. Belə ki, onun ərizəyə əlavə etdiyi ödəniş qəbzlərinin əksəriyyəti, yəni 510,00 manatı Şərif Bəşirova aid olmamışdır. 01.06.2014-cü il tarixə bələdiyyənin sərbəst auditora 900,00 manat (390,00 + 510,00) borcu olmuşdur. Bələdiyyə tərəfindən audit başa çatmasına baxmayaraq müqavilə öhtəliyinin yerinə yetirilməməsi səbəbindən auditor məhkəmə qaydasında mülki iddia qaldırmış və onun iddiası təmin olunmuşdur. Araşdırma dövründə Tehran Dövlətov Auditorlar Palatasına 05.11.2015-ci il tarixdə faks və teleqram ünvanlamış, üzürxahlıq etmiş və sərbəst auditor Şərif Bəşirovla üzləşmə apardığını, həqiqətən də İsmətli bələdiyəsinin auditora 01.06.2014-cü il tarixə 900 manat ödənilməmiş borcu qaldığını təsdiq etmış və buna görə də auditor Şərif Bəşirovdan heç bir tələbi olmadığını bildirdirmişdir. Yuxarıda qeyd olunanlara əsasən müvafiq prosüdur qaydalarına riayət edilməklə araşdırma dayandırılmış və materiallar işə alınmışdır.

Xızı rayonu Giləzi Qəsəbəsinin sakini Ələkbərov Rauf Muradəli oğlu Şahbala Rəcəbovun, Xonça Əliyevanın, Nəcəf Əzimovun, Naib Həmzəyevin imzası ilə Auditorlar Palatasına 2015-ci il 06 yanvar tarixində daxil olmuş ərizə araşdırılmışdır. Ərizədə Xızı rayon məhkəməsinin 17 noyabr 2014-cü il Qərardadına əsasən müvafiq sərəncamla "Giləzi-Yem" Açıq Səhmdar Cəmiyyətinin son 5 il üzrə maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılması sərbəst auditor Şərif Bəşirova tapşırılmış, icrası başa çatmamış araşdırılmanın qərəzli aparılacağı iddia edilirdi. Ərizədə göstərilənlərin heç bir fakta söykənməməsinə baxmayaraq Ş.Bəşirov Auditorlar Palatasına dəvət olunmuş və ona bir daha auditor yoxlamasını məhkəmə orqanının qərardadına uyğun olaraq tam obyektiv və qanunauyğun qaydada başa çatdıraraq aidiyyatı üzrə həmin orqana təqdim etməsi tapşırığı verilmişdir. Araşdırmanın nəticəsi barədə ərizəçilərə cavab verilmiş və bildirilmişdir ki, Qərardadla auditor qarşısında konkret suallar qoyulmuşdur. Həmin suallara cavab auditor tərəfindən müvafiq qaydada rəsmiləşdirilməklə auditin nəticəsinə dair tərtib ediləcək sənədlərdə əks olunacaq və məhkəmə orqanına təqdim ediləcəkdir. Həmin sənədlərə hüquqi qiymət vermək məhkəmənin müstəsna səlahiyyətinə aiddir. Sərbəst auditor Şərif Bəşirovun qərəzli və ya birtərəfli mövqe tutması üçün heç bir əsas müəyyən edilməmişdir. Eyni zamanda Xızı rayon məhkəməsinə də məktub göndərilmişdir.

Bundan əlavə hesabat dövründə Auditorlar Palatası Şurasının 14.04.2015-ci il tarixli 261/7 saylı "Azərbaycan Respublikası Auditorlar Palatası üzvləri tərəfindən üzvlük haqqının ödənilməsi" barədə Təlimata uyğun olaraq Palataya üzvlük haqqının vaxtında ödəmə, Palata üzvlərinin hüququ və vəzifələri barədə Əsasnamənin 2.5 "Palata Şurası tərəfindən müəyyən edilmiş müddətdə və məbləğdə üzvlük haqqı ödəmək" tələblərinin, habelə Peşə etikasının **Peşə davranışı** (Auditorların müvafiq qanunvericiliyə və ya qaydalara riayət etməsi, habelə peşəsini gözdən salan hər hansı hərəkətlərdən çəkinməsinə dair tələblərə riayət etmələri) prinsiplərinin pozulması səbəbindən "Bakı şəhər auditor təşkilatı"na Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən (VÖEN 1300458561) verilmiş auditor fəaliyyətini həyata keçirməyə icazə verən 23.02.2012-ci il tarixli, AT/003 qeydiyyat saylı, 072722 №-li n və "Best Audit" Məhdud Məsuliyyətli Cəmiyyətinə (VÖEN 2002113951) Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən verilmiş auditor fəaliyyətini həyata keçirməyə icazə verən 12.10.2011-ci il tarixli, AT/092 qeydiyyat saylı, 047518 №-li lisenziyasının fəaliyyəti qərarı dayandırılmışdır.

"Best Audit" Məhdud Məsuliyyətli Cəmiyyətinə (VÖEN 2002113951) Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən verilmiş auditor fəaliyyətini həyata keçirməyə icazə verən 12.10.2011-ci il tarixli, AT/092 qeydiyyat saylı, 047518 №-li lisenziyasının

fəaliyyəti üzvlük haqqı borcları tam ödənildikdən sonra 06.05.2015-ci il tarixindən etibarən bərpa edilmişdir.

Hesabat Palata Şurasında müzakirə olunduqdan və bəyənildikdən sonra “Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nda nəzərdə tutulan tədbirlərin icrası barədə hər il yanvarın 15-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına göndəriləcək illik hesabata əlavə edilmək üçün təqdim olunacaq və həmin hesabatın tərkib hissəsi kimi ictimaiyyətə açıqlanacaqdır.

**Auditorlar Palatasının**

**Auditin hüquqi təminatı və standartlaşdırma idarəsi**

**Azərbaycan Respublikası**

**Auditorlar Palatasının Peşə Etikası Komitəsi**